# XATİRƏSİNİN ƏBƏDİLƏŞDİRİLMƏSİ




***2004-cü ilin 1 dekabrında Bakıda vəfat edib və Fəxri Xiyabanda dəfn olunub.***

***1993-cü ildə şairin adına "Məmməd Araz" mükafatı təsis olunmuşdur.***

**Bu mükafata layiq görülənlər:**

| | |
|---|---|
| *Adil Rüstəmov* | *Məmməd Arif* |
| *Aqil Abbas* | *Məmməd Kazım* |
| *Budaq Təhməz* | *Məmməd Tahirov* |
| *Dəyanət Səlimxanlı* | *Rəşid Faxralı* |
| *Ələsgər Talıboğlu* | *Səyavuş Sərxanlı* |
| *Əmirxan Xəlilov* | *Telli Pənahqızı* |
| *Flora Xəlilzadə* | *Vaqif Yusifli* |






***2013-cü ildə Məmməd Araz adına poçt markası dövriyəyə buraxılmışdır.***

***Məmməd Arazın adının əbədiləşdirilməsi ilə bağlı Azərbaycan Respublikası Prezidenti iki dəfə Sərəncam imzalayıb. Bakının "Gənclik" metro stansiyası yaxınlığında, Atatürk prospekti ilə kəsişən Teymur Əliyev küçəsi daha sonra Məmməd Arazın adını daşımışdır.***



***2014-cü il dekabrın 1-də - Xalq Şairi Məmməd Arazın xatirəsini anma günündə onun doğulub boya-başa çatdığı Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Nursu kəndində ev-muzeyinin açılışı olmuşdur.***



***Muzey binası iki mərtəbədən ibarətdir. Xalq Şairi Məmməd Arazın zəngin irsini əks etdirən eksponatların yerləşdiyi muzey ədibin həyat və yaradıcılığı haqqında geniş məlumat almağa imkan verir. Ekspozisiyada şairin müxtəlif illərdə nəşr olunan, eləcə də görkəmli sənət ustasının həyat və yaradıcılığından bəhs edən kitablar, mənalı həyat yolunun müxtəlif dövrlərini əks etdirən fotoşəkillər sərgilənir.***